# *Şəhid övladı:* "İfa etdiyim hər bir musiqi parçası atama sevginin, qəhrəmanlığın və Vətən eşqinin ifadəsidir"

**Musiqi bəzən insana həyatın ən ağır anlarında belə təsəlli verir. Süleyman Ramaldanov üçün musiqi yalnız məşğuliyyət deyil, həm də atasının xatirəsini yaşadan, onu gələcəyə bağlayan ümid işığıdır.**

Gənc ifaçı AZƏRTAC-ın müxbiri ilə söhbətində bu sahədə qazandığı uğurlardan, gələcək planlarından və bu sahəyə gəlişindən danışıb.

Süleymanın musiqiyə gəlişi təsadüf olmayıb. Böyük qardaşının uğurlu çıxışları onun da qəlbində ifaçılığa maraq oyadıb. "Atam istedadımı görəndə məni 34 nömrəli Uşaq Musiqi Məktəbində fortepiano üzrə təhsilə yönəltdi. Artıq 7 illik təhsilin altı ilini başa vurmuşam. Müəllimim, fortepiano şöbəsinin müdiri Afət Məmmədovanın üzərimdə əziyyəti böyükdür", - deyə Süleyman əlavə edib.

Müxtəlif tədbirlərdə, məkanlarda çıxış etsə də, Şuşadakı təqdimatı həyatında unudulmaz iz buraxıb. Qala şəhərdə şəhid övladlarının düşərgəsində, Xan qızı Natəvanın bağında "Qaytağı" rəqsini ifa etməsi və solist kimi çıxışı gənc musiqiçiyə fəxarət hissi yaşadıb. Bu, təkcə ifa deyil, həm də musiqinin azad edilmiş torpaqlarda yenidən səslənməsi idi.

Süleyman artıq respublika səviyyəsində uğurlar qazanmış gənc ifaçı kimi tanınır. O,



İkinci Respublika "Akademik, xalq və caz musiqisi" müsabiqəsinin laureatı adını qazanıb. Uğurlarına baxmayaraq, musiqi onun üçün həyat tərzidir. Gələcəkdə bu sahəni davam etdirməklə yanaşı, həm də ən böyük arzusu atası kimi hərbçi olmaqdır.

Atası polkovnik-leytenant Babək Ramaldanov 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb. Bu itki ailənin həyatında silinməz iz buraxıb. "Atam şəhid olduqdan sonra musiqiyə davam etmək istəmirdim. Hər şey mənasız görünürdü. Amma sonra anladım ki, bu, atamın arzusu idi. O, mənim musiqi ilə məşğul olmağımı istəyirdi. Ona görə də davam etdim", - deyə Süleyman ürək sözlərini bölüşüb.

Şəhid Babək Ramaldanov 1982-ci il avqustun 9-da Bakı şəhərində anadan olub. O, əslən Qusar rayonundandır. Orta təhsilini 1989-1997-ci illərdə Xətai rayonunda yerləşən 59 nömrəli məktəbdə alıb, daha sonra 1997-2000-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2000-2004-cü illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirib.

O həmçinin 2017-2019-cu illərdə Rusiya Silahlı Qüvvələrinin Ümumqoşun Akademiyasında ali hərbi təhsil alaraq peşəkar zabit kimi yetişib. Babək Ramaldanovun dayısı, Qarabağ müharibəsinin qazisi və Azərbaycan Silahlı Qüvvələrinin zabiti Şair Ramaldanov ailənin igidlik ənənələrinin davamçısıdır.

2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində polkovnik-leytenant Babək Ramaldanov Cəbrayıl və Füzuli istiqamətlərində gedən ağır döyüşlərdə iştirak edib. Oktyabrın 16-da Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. O, Bakıda, II Şəhidlər xiyabanında dəfn edilib. Oğulları Ramaldan və Süleyman onun əziz xatirəsini yaşadırlar.

Prezident İlham Əliyevin sərəncamları ilə Babək Ramaldanov "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Bu gün Süleyman atasının yarımçıq qalmış arzularını yaşadır, həm musiqi, həm də gələcəkdə hərbi sahədə atasının yolunu şərəflə davam etdirmək istəyir.

"İfa etdiyim hər bir musiqi parçası atama sevginin, qəhrəmanlığın və Vətən eşqinin ifadəsidir" deyir həmsöhbətimiz.

Azərbaycan. - 2025.- 16 oktyabr (№ 222).- S.11.